# Azərbaycan nümayəndə heyəti "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransında iştirak edir

Fevralın 20-24-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində iki ildən bir təşkil olunan "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransı keçirilir.




Müdafiə Sənayesi Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Birləşmiş Ərəb Əmirliklərinin Baş nazirinin müavini - prezident işləri üzrə nazir Şeyx Mansur bin Zayed Al Nahyanın açılışını etdiyi sərgidə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edir.

Dünyanın 65 ölkəsindən 1350-dən çox qabaqcıl şirkət və 350 nümayəndə heyətinin qatıldığı "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransında Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan 145 adda müdafiə təyinatlı məmulatlar nümayiş etdirilir.

Sərgi zamanı müdafiə sənayesi naziri Mədət Quliyevin Birləşmiş Ərəb Əmirliklərinin dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkətlərin təmsilçiləri ilə görüşləri nəzərdə tutulub.

"İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransı öz işini fevralın 24-dək davam etdirəcək.

Azərbaycan.- 2023.- 21 fevral.- S.4.